# Neftçilərimiz Qurban Abasovun təcrübəsini öyrənir, yaşadır və nəsildən-nəslə ötürürlər

**Neftçi Qurban Azərbaycan xalqının qəlbində böyük neftçi, böyük mühəndis, böyük təşkilatçı, böyük dövlət xadimi və gözəl insan - yüksək mənəvi keyfiyyətləri olan bir insan kimi daim yaşayacaqdır**

Ulu öndər Heydər Əliyev



**Azərbaycanın 150 ildən artıq neft yataqlarının sənayesinin tarixi var. Təsadüfi deyil ki, neft elminin inkişafında azərbaycanlı alimlərin, geoloqların, neftçilərin xidmətləri olduqca böyükdür. Bunlardan biri də Qurban Abasov idi.**

"Neftçi Qurban" adı ilə məşhur olan Qurban Abasovun həyat yolu parlaqdır, nümunəvidir və xalqımızın nəyə qadir olduğunu əyani surətdə nümayiş etdirir. Adi bir gənc Azərbaycan sənayesinin, iqtisadiyyatının ən mühüm, eyni zamanda ən ağır sahəsi olan neft sənayesi sahəsində ən kiçik işdən, fəhləlikdən ən yüksək zirvəyə çatmışdır. Şübhəsiz ki, bu bizim Azərbaycan neftçilərinin, neft sənayesində işləyənlərin, bu sahənin ictimai-siyasi mühiti ilə bağlıdır. Eyni zamanda Qurban Abasovun öz fitri istedadı, zəhmətkeşliyi, əməksevərliyi, vətənpərvərliyi ilə bağlıdır. Məhz xalqını sevən adam, vətənpərvər adam, zəhmətkeş adam 50 il ərzində bu ağır sahədə öz çiynində böyük yükü daşımağa qadir ola bilərdi. Neft sənayesi Azərbaycan xalqının fəxridir. Neftçilər həmişə xalqımızın ən mötəbər nümayəndələri olublar. Neft sənayesi Azərbaycan iqtisadiyyatının ən böyük dayağı olub.

Ulu öndər Heydər Əliyev 1994-cü il sentyabrın 15-də görkəmli neftçinin dəfn mərasimində çıxış etmiş, Qurban Abasovun keçdiyi həyat yolunu layiqincə dəyərləndirmiş və onun vəfatını xalqımız üçün böyük itki hesab etmişdir. Ulu Öndərin "Neftçi Qurban" haqqında fikirlərini qeyd etmək yerinə düşər: "Neftçi Qurban təvazökar bir adam idi, sözün əsl mənasında işgüzar bir adam idi. Yüksək vəzifələr tutduğu vaxtda da, böyük dövlət xadimi olduğu vaxtda da nəinki Azərbaycanın, o vaxtkı Sovetlər İttifaqının neft sənayesinin problemləri ilə məşğul olduğu vaxtda da həmişə özünü sadə aparırdı. O həmişə fədakar olub, həmişə öz işgüzarlığı ilə fərqlənib. Mənə yaxşı məlumdur və bunların şahidiyəm ki, Sovetlər İttifaqının neft sənayesinin başında duran böyük neftçilər, dövlət xadimləri, ölkə rəhbərləri Neftçi Qurbanı şəxsən tanıyırdılar, onun xidmətlərini qiymətləndirirdilər və biliyindən, təcrübəsindən həmişə istifadə edirdilər. Mən Qurban Abasovu şəxsən yaxından tanıyıram. Mənim tanışlığım işlə əlaqədar olub. 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik edərkən mən daim neftçilərlə əlaqədə olmuşam və bu sırada Neftçi Qurbanı da işdə müşahidə etmişəm. Onun həm Neft Daşlarında olduğu vaxt, həm də neft sənayesinin problemləri müzakirə edilərkən irəliyə sürdüyü fikirlər, məsləhətlər, təkliflər həmişə çox dəyərli, ağıllı, mənfəətli olub. Bunların hamısı da Azərbaycan iqtisadiyyatının inkişafına, xalqımızın rifah halının yüksəlməsinə yönəldilmişdir. ...Neftçi Qurban Azərbaycan xalqının qəlbində böyük neftçi, böyük mühəndis, böyük təşkilatçı, böyük dövlət xadimi və gözəl insan - yüksək mənəvi keyfiyyətləri olan bir insan kimi daim yaşayacaqdır. Neftçi Qurbanın həyat yolu xalqımız üçün, gənclərimiz üçün nümunədir."

Qurban Abbasqulu oğlu Abasov 1926-cı il oktyabrın 26-da Naxçıvan Muxtar Respublikası Babək rayonunun Payız kəndində anadan olub. Əmək fəaliyyətinə 1944-cü ildə "Artyomneft" trestində fəhlə kimi başlayan Qurban Abasov, sonra "Azərneft" Birliyinin qazma idarəsində qazmaçı, buruq ustası, "Gürgənneft" NMİ-nin şimal qazma sahəsi idarəsinin rəisi vəzifəsində işləyib. 1951-ci ildə 25 yaşlı qazmaçı usta Qurban Abasov alim, geoloq, mühəndislərlə birlikdə Neft Daşlarının kəşfinə görə I dərəcəli Stalin mükafatına layiq görülüb. O, 9 dəzgahı olan sahəyə rəis təyin olunub. Həmin sahədə hər bir dəzgahın qazma sürətini 1400 m-ə çatdırmağa nail olub.



Qurban Abasov usta Mixail Kaveroçkinlə birlikdə Neft Daşlarında ilk quyuları qazıb. Dörd aydan sonra, daha dəqiq desək, 1949-cu il noyabrın 7-də qazmaçılar 1100 metr dərinliyə çatdılar və gündəlik hasilatı 100 ton olan quyu fontan vurdu. İkinci quyuda qazma işlərini Qurban Abasovun briqadası görürdü. 1950-ci ildə fontan vuran bu quyudan isə gündə 110 ton neft çıxarılırdı. 1951-ci ilin fevralında "Neft Daşları"ndan çıxan ilk tanker yükünü boşaltmaq üçün Bakının Dübəndi limanına yan aldı. Dəniz fatehlərinin yaşadıqları dəmir dirəklər üzərindəki kiçik evcik sonradan böyük bir şəhərciyə çevrildi. Estakadalar üzərində qurulan bu şəhərciyin "Neft Daşları" kimi məşhurlaşmasında neftçi Qurbanın təşkilatçılıq qabiliyyəti az rol oynamayıb. Neftçi Qurbanın şan-şöhrəti hər yerə yayılır. Neftçi Qurbanı məşhurlaşdıran, xalqın sevimlisinə çevirən Neft Daşları olub. Burada o, Xəzərdə misli görünməmiş nəticələr qazanaraq qazmanın sürətini rekord səviyyəyə çatdırıb.

1967-ci ildən başlayaraq Q.Abasov "Xəzərdənizneftkəşfiyyat" trestinin müdiri, "Xəzərdənizneft" İstehsalat Birliyi baş direktorunun müavini, "Neft Daşları" NQÇİ-nin rəisi, "Xəzərdənizneftqazsənaye" İstehsalat Birliyinin baş direktoru, "Xəzərdənizneft" İstehsalat Birliyinin baş direktoru, SOCAR-ın baş müşaviri vəzifələrində çalışıb. Bu vəzifələrdə çalışarkən o, çox işlər gördü. Belə ki, onun rəhbərliyi ilə stasionar özüllərin quraşdırma işlərinin prinsipcə yeni üsulu işlənib hazırlanıb. "Günəşli", "Çıraq", "Azəri", "Kəpəz" və s. iri yataqların kəşf edilməsində onun misilsiz xidmətləri olub. Q.Abasov hələ çox gənc ikən öz dövrünün bir çox ali mükafatına layiq görülmüşdü. 32 yaşında onun sinəsini Sosialist Əməyi Qəhrəmanının "Qızıl ulduz"u bəzəyirdi. Ölkə qarşısında böyük xidmətlərinə görə SSRİ-nin fəxri neftçisi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatı, Azərbaycan SSR Əməkdar mühəndisi adlarına layiq görülmüş, 2 dəfə Lenin, "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı", "Oktyabr İnqilabı" ordenləri və medalları ilə təltif olunmuşdu. Nəhayət, ömrünün ahıl çağında ona müstəqil Azərbaycan Respublikasının yüksək mükafatını - "Şöhrət" ordenini almaq da qismət olmuşdu. Neftçi Qurban özünün dənizdəki iş fəaliyyətinin 50 illik yubileyini qeyd edərkən Azərbaycanın ən yüksək mükafatını - "Şöhrət" ordenini alan ilk neftçi olmuşdur.

Xatırlatmaq yerinə düşər ki, vaxtilə Qurban Abasovla bir yerdə işləmiş SOCAR-ın birinci vitse-prezidenti, görkəmli korifey neftçi, akademik Xoşbəxt Yusifzadə özünün "Ömrümün illəri və izləri" kitabında neft sahəsində böyük xidmətləri olan şəxsiyyətlər haqqında maraqlı məqalələr, xatirələr vermişdir. Belə məqalələrdən biri də Neftçi Qurban haqqındadır.

Dünyada ilk dəfə dənizin dibindən neft çıxarmağa başlayan Bakı neftçilərinin əmək qəhrəmanlığından bəhs edən 1953-cü ildə çəkilmiş "Xəzər neftçiləri haqqında dastan" bədii-sənədli filmində əmək qəhrəmanları Qurban Abasov, Mixail Kaveroçkin və başqa neftçilərin hünərindən, ilk buruğun neft fontanı vurmasından, neftçilərin qəhrəmanlıq göstərərək buruqda baş verəcək fəlakətin-yanğının qarşısını almalarından danışılır.

Təsadüfi deyil ki, 1950-ci illərdə "Neftçi Qurban" mahnısı böyük sənətkarımız Bülbülün ifasında hər birimizin qəlbindən gələn hissləri əks etdirirdi. O vaxtlar bu mahnını dinləyənlərin bir çoxu Neftçi Qurbanı bəlkə də şəxsən tanımırdı. Ancaq Neftçi Qurban hələ o vaxt öz qəhrəmanlığı, fədakarlığı ilə o qədər şöhrət qazanmışdı ki, onun fəaliyyətinə şairlərimiz tərəfindən şeirlər yazılmış, mahnı qoşulmuş və o mahnı da illərdən-illərə keçmişdir.

Azərbaycan xalqı öz əfsanəvi qəhrəmanının adını əbədiləşdirmək üçün üzən krana "Neftçi Qurban" adı vermişdir. Lökbatan qəsəbəsində Mədəniyyət sarayı, küçə, məktəb, körpü onun adını daşıyır. Tələbə və aspirantlar üçün "Neftçi Qurban" təqaüdü təsis edilib. Azərbaycan neftçiləri Qurban Abasovun hünərini, əməllərini, təcrübəsini öyrənir, yaşadır və nəsildən-nəslə ötürürlər.

✍ **Orxan Vahidoğlu,**
***"İki sahil"***